# Kolumbiya Universiteti

**Yerləşir:** Nyu-York şəhəri, ABŞ
**Yaranma tarixi:** 1754-cü il
**Tipi:** Özəl
**Akademik heyəti:** 3806 nəfər
**Tələbələrin ümumi sayı:** 30000 nəfər
**Rəsmi saytı:** www.columbia.edu

Kolumbiya Universiteti (Columbia University) ABŞ-ın ən məşhur universitetlərindən biridir və Nyu-York şəhərinin Manhetten rayonunda yerləşir. Universitet ABŞ-ın səkkiz ən nüfuzlu ali məktəblərini birləşdirən Sarmaşıq liqasına daxildir. Universitetin rəsmi sənədlərində belə qeyd olunub: “Nyu-Yorkda birinci, ölkədə beşinci, özəl, azad məsləkli”. Ali məktəb 2016-cı ildə Böyük Britaniyanın “Times Higher Education World Reputation Rankings” reytinq sıralamasında 9-cu, “ QS World University Rankings”-in reytinqində 22-ci, Amerika Milli Universitetləri reytinqində (National Universities Rankings) 4-cü yerdədir.



## Tarixi

Amerikanın Harvard (1636), Yel (1701), Prinston (1746), Pensilvaniya (1751) universitetləri kimi Kolumbiya Universitetinin tarixi də ABŞ-ın tarixindən qədimdir. 1754-cü ildə yaranan bu təhsil ocağı tez bir müddətdə siyasi elita yetişdirməyə başlayıb. XVIII əsrin əvvəllərində Nyu-York əhalisinin sayı sürətlə artır və burada universitetə böyük ehtiyac yaranır, lakin İngiltərə kralları, nədənsə, bu məsələni uzadırdılar. Nəhayət, 1754-cü ildə kral II Corc Nyu-Yorkda kütləvi kitabxananın və Kral Kollecinin (Kings College) yaradılması haqqında xartiyanı imzalayıb. Kollec Triniti Kilsəsi (Trinity Church) adlanan yepiskop (anqlikan) kilsəsinin yaxınlığında, Aşağı Manhettendə yerləşirdi. Lakin buna baxmayaraq xartiyada universitetin dini azadlıq zəminində yaradılması göstərilib. Kolumbiya Universitetinin şüarı belə səslənir: “Sənin işığında nur tapacağıq”. 1754-cü ildə kollecin birinci prezidenti Samuel Conson öz ilk səkkiz tələbəsinə mühazirə oxuyub, 1758-ci ildə Kral Kolleci elmi dərəcələr verməyə başlayıb. Kollecdə hüquq fakültəsi fəaliyyət göstərir, 1767-ci ildə isə tibb fakültəsi əlavə edilir. Yeni yaranmış təhsil müəssisəsi tezliklə böyüyərək nüfuz əldə etməyə başlayır. İlk altıillik fəaliyyəti dövründə burada Nyu-Yorkun varlı ailələrindən olan oğlanlar təhsil alırdılar. Fəaliyyəti zamanı kollec bir müddət müflis olmaq təhlükəsi ilə üzləşib, lazım olan 10 min funt-sterlinq məbləğin 5 minini qüdrətli yəhudi biznesmenlərindən olan Mozes və onun İngiltərədə yaşayan bacısı Fil Franklar veriblər. Yeni yaranmış universitetdə fənlərdən birinin mütləq qədim yəhudi dili olması da məhz buradan qaynaqlanır. Samuel Consonun özü də bu dili mükəmməl bilirdi. Amerika inqilabı və müstəqillik uğrunda gedən müharibə kollecin fəaliyyətini səkkiz il dayandırıb. Təhsil ocağı 1784-cü ildə adını dəyişərək Kolumbiya Kolleci (yeni müstəqillik qazanmış ölkəyə uyğun) kimi fəaliyyətə başlayıb. Kollecə rəsmi olaraq 1912-ci ildə universitet statusunun verilməsinə baxmayaraq, 1896-cı ildən bu təhsil müəssisəsini Kolumbiya Universiteti adlandırıblar. 1849-cu ildə Qəyyumlar Şurası Park-avenyu kvartalında universitet üçün bina alıb. Bu zamana qədər kollec nəinki borclarından qurtarmışdı, hətta milyon dollar dəyərində olan mülkə sahiblik edirdi (təkcə onu qeyd etmək yetər ki, universitetin ərazisində məşhur Rokfeller mərkəzi yerləşir). Bu illərdə universitet sürətlə genişlənməyə başlayıb: 1858-ci ildə Kolumbiya Hüquq Məktəbi (Columbia School of Law), 1864-cü ildə ABŞ-da ilk dağ-mədən kolleci (Foundation School of Engieneering and Applied Science) açılıb. 1875-ci ildə Kolumbiya Universitetində ilk dəfə olaraq fəlsəfə doktoru dərəcəsi təqdim edilib, 1888-ci ildə Anna Natan Meyer (Azadlıq heykəlinin pyedestalında şeirləri həkk olunmuş Emma Lazarusun qohumu) qadın kollecinin açılması haqqında kampaniyaya başlayıb və bir il sonra 1889-cu ildə Kolumbiya Universitetinin nəzdində qadınlar üçün Bernard-kollec açılıb. Hazırda Bernard-kollecin girişində Anna Meyerin portreti asılıb və onun adına kitabxana fəaliyyət göstərir.1893-cü ildə universitetdə pedaqogika fakültəsi yaradılıb. XIX əsrin sonlarında Çarlz Follen Mak Kim Kolumbiya Universitetinin yeni kampus planını hazırlayıb. Plana əsasən, kampus Brodvey, Amsterdam-avenyu, 114-120-ci küçələri əhatə edən ərazidə yerləşməli idi. Lakin uzun illər davam edən tikinti işləri əsas planı pozub. Müxtəlif memarlıq məktəblərinin nümayəndələri tərəfindən inşa edilən binaların hərəsi bir dövrə aiddir: İtaliya renessansı üslubunda tikilmiş binanın yanında aerovağzalı xatırladan Yuris-hollun şüşəli korpusu yerləşir. Nikolas Betlerin rəhbərliyi (1902-1945) dövründə universitet təhsil sahəsində innovasiyalar və tədris prosesinin təşkili üzrə milli mərkəzə çevrilib, xüsusilə humanitar və təbii elmlərin tədrisində daha böyük uğurlar əldə edilib. 1912-ci ildə Cozef Pulitserin təşəbbüsü ilə burada Jurnalistika Məktəbi açılıb. XX əsrin əvvəllərində Kolumbiya Biznes Məktəbi yaradılıb. I Dünya müharibəsindən sonra universitetdə müharibə və sülh problemlərlərinin öyrədilməsinə başlanılıb və politologiya kursları, II Dünya müharibəsindən sonra, 1946-cı ildə isə Beynəlxalq Münasibətlər Məktəbi (School of International and Public Affairs) açılıb. 20-ci illərdə universitetdə Frans Boaz antropologiya, Tomas Morqan genetika fakültələrinin açılmasına nail olublar. 1928-ci ildə Kolumbiya Universiteti ilə Presbiterian hospitalı birgə ABŞ-da ilk tibbi mərkəz olan, özündə tədris, elmi tədqiqatlar və bilavasitə xəstələrin müalicəsini cəmləşdirən Kolumbiya-Presbiterian Tibb Mərkəzini yaradıblar. 40-cı illərdə E. Fermi, İ. Rabi, P. Kuş tərəfindən fizika fakültəsində aparılan atom tədqiqatları universitetə dünya şöhrəti gətirib. Universitetdə lazer kəşf olunub. Universitet alimlərinin hazırladığı 30-a yaxın dərman hazırda xərçəng, qlaukoma, artrit kimi xəstəliklərin müalicəsində istifadə olunur. Bu təhsil ocağı 200 illik yubileyini yüksəlişlə qeyd edib - yeni kampusların tikilməsi üzrə proqram qəbul olunub. 60-cı illərin sonuna qədər 5 fakültə yeni binalara köçməli idi. Lakin elə həmin illərdə Vyetnamda gedən müharibə ilə əlaqədar tələbə hərəkatı burada böhranın yaranmasına səbəb olub. 1968-ci ilin aprelində minlərlə qiyamçı tələbə universitetin binalarını ələ keçirib və polis çətinliklə onları buradan çıxarmağa müvəffəq olub. Prezident Qreyson Krik istefa verib, təhsil, tədqiqat və tikinti layihələrinin çoxu ləğv olunub. Nəticədə idarəetmə islahatları həyata keçirilib, tələbələrin öz ali məktəblərinə fəal olaraq təsir etmələri üçün universitetin senatı yaradılıb. 70-90-cı illərdə Kolumbiya Universiteti intensiv inkişaf etməyə başlayıb: yeni fakültələr, elmi-tədqiqat mərkəzləri, kampuslar, 26 ixtisaslaşdırılmış institut, Qidalanma haqqında elmlər İnstitutu, Müharibə və Sülh problemlərinin öyrədilməsi İnstitutu, ümumamerika Hüquq Mərkəzi, Rusiya İnstitutu, İnsan hüquqları İnstitutu, 30-dan çox kitabxana, eləcə də 3 əsas - Saut-holl (3 milyon cild), texniki (450 min), hüquq (250 min), tibb (120 min) kitabxanaları və s. açılıb. Batler, Eyveri memarlıq və incəsənət, hüquq memorial universitetin ən böyük kitabxanalarıdır. Bütövlükdə, Kolumbiyanın kitabxana sistemi 12 milyon cild kitaba malikdir.



*Universitetin tələbəsi Barak Obama (1983-cü il)*

## Universitet bu gün

1993-cü ildə Kolumbiya Universitetində 650 milyon dollarlıq inkişaf proqramı həyata keçirilib. 2004-cü ildə universitetin 250-ci ildönümündə tələbələrin sayı 19800 (9400 nəfəri qadın) nəfərə çatıb. Kolumbiya Universitetinin kampusu böyük bir ərazini əhatə edir: əsas kampus - 15 hektar, idman kompleksi - 10 hektar, tibb mərkəzi - 9 hektar, rəsədxana - 64 hektar. Kampusda tələbələr üçün hər cür şərait yaradılıb. Hartli-holl, Livinqston-holl, Con-Cey-holl, Farneld-holl, Hoqan-holl, McBain-holl, Brodvey-holl, Vien-holl və s. yataqxanalar tələbələrin istifadəsindədir. Kolumbiya Universitetində aşağıdakı fakültələr - Amerika tədqiqatları, antropologiya, arxeologiya, incəsənətin tarixi və arxeologiya, vizual incəsənət, astronomiya, antik ənənə, ərəbşünaslıq, bioloji elmlər, biznes, informasiya texnologiyaları, dramaturgiya və teatr mədəniyyəti, ətraf mühit haqqında elmlər, Şərqi Asiya dilləri və mədəniyyəti, Yaxın Şərq dilləri və mədəniyyəti, ingilis dili və ədəbiyyatı, ingilis dili xarici dil kimi, fransız, alman dilləri və roman-german filologiyası, slavyan dilləri və ədəbiyyatı, ispan və portuqal dilləri və ədəbiyyatı, iqtisadiyyat, mühəndislik, kinoşünaslıq, musiqi, tarix, hüquq, beynəlxalq əlaqələr, fəlsəfə, politologiya, psixologiya, sosiologiya, statistika, regionşünaslıq, jurnalistika, fizika, kimya, tibb, riyaziyyat və s.fəaliyyət göstərir. Hər il bu ixtisaslar üzrə Kolumbiya Universiteti yay proqramları təşkil edir və buraya əcnəbi tələbələr cəlb olunur. Yay proqramlarına seçim fərdi şəkildə aparılır. Bütün fənn kursları tədris sessiyalarının cədvəl spesifikasından asılı olaraq bir neçə təqvimə bölünür. Proqram çərçivəsində bakalavr və magistratura dərəcəsində fənlər keçilir. Proqramın şərtlərinə əsasən, tələbələr minimum 4 akademik kurs keçməlidirlər. Yay proqramının iştirakçıları tələbə yataqxanalarında qalırlar. Proqram ərzində tələbələr Amerika ali məktəblərinin bütün imtiyazlarından istifadə edə bilərlər: ənənəvi və elektron kitabxana və arxivlərdən, kompüter siniflərindən, universitetin aparıcı müəllimlərinin məsləhətlərindən və s. Proqramın müddəti 12 həftədir.

Universitetə qəbul olunmaq istəyənlərin orta təhsil haqqında şəhadətnaməsi, magistr və doktor proqramları üçün ali məktəb diplomu olmalıdır. Qəbul üçün ümumi tələblər: 250-dən az olmayan TOEFL nəticələri, əgər ərizə Nyu-Yorkda təqdim edilirsə, EPT-dən (English Placement Test) imtahan verməli lazımdır. EPT nəticələri qeyri-məqbul olarsa, tələbəni avtomatik olaraq intensiv dil kurslarına salırlar. Universitetə qəbul olunmaq üçün tələb olunan sənədlərə buraxılış və ya ixtisas imtahanlarının nəticələrinin surəti, həmçinin alınmış sertifikatlarla birgə hərfi tərcümə edilmiş əlavələr, maliyyə durumu haqqında arayış, müəllimlərin zəmanət və tövsiyə məktubu daxildir. Onlayn təqdim olunan ərizə üçün 85 ABŞ dolları ödənməlidir. Universitetə sənəd vermiş abituriyentlərin yalnız 7 faizi tələbə adını qazana bilir. Ali təhsil ocağının hazırkı prezidenti Li Bollinjerdir.



*Universitetin kitabxanası*

## Büdcəsi və təhsil haqları

Kolumbiya Universiteti akademik hazırlığın səviyyəsi, tibb, mədəniyyət, sosiologiya və s. elmlərin tədqiqatı üzrə əldə etdiyi uğurlara görə bütün dünyada məşhurdur. Hazırda burada 300000-dən çox tələbə təhsil alır, onların 28%-ni digər ölkələrdən gələnlər təşkil edir. 2015-2016-cı dərs ilinin statistik məlumatlarına əsasən, universitetdə 146 ölkədən olan tələbələr təhsil alır. Tələbələrin böyük əksəriyyəti Çin, Hindistan, Cənubi Koreya, Kanada və Fransanın payına düşür. Əcnəbi tələbələrin sayına görə ali məktəb Amerika universitetlərinin ilk 5-liyinə daxildir. Universitetdə yüksək səviyyədə ixtisaslaşmış professor-müəllim heyəti çalışır. Onların sayı 3806-dən çoxdur. Bu gün Kolumbiya Universiteti beynəlxalq təhsil və elmi-tədqiqat mərkəzinə çevrilib. Ali məktəbdə illik təhsil haqları ixtisaslar və təhsil səviyyələrindən asılı olaraq 36052 - 65988 dollar arasında dəyişir. 2015-ci maliyyə ilində universitetin illik gəlirləri 4.02 milyard dollar, illik xərcləri isə 3 milyard 900 milyon dollar təşkil edib. 2015-ci ildə universitetin endaument fondu 9.639 milyard dollar təşkil edib. Amerikanın digər ali məktəbləri kimi Kolumbiya Universitetində də maliyyə durumundan asılı olaraq tələbələr üçün maddi yardım proqramları mövcuddur. Statistikaya müvafiq olaraq tələbələrin 50-60 faizi bu cür yardımlardan yararlanır. Yardım zərfi 30000 dollar təşkil edir. Universitetin məzunlarının 95 faizi ali məktəbi bitirdikdən ilk 6 ay sonra yüksək maaşlı işlə təmin olunur.



*Universitetin 2016-cı il məzunları*

## Məşhur məzunları

Kolumbiya Universiteti çoxsaylı dünya şöhrətli məzunlar yetişdirib. Onların arasında 101 Nobel mükafatı laureatı var. Son 15 ildə universitetlə bağlı olan 18 alim Nobel mükafatına layiq görülüb ki, onlardan 8 nəfəri hazırda ali məktəbdə fəaliyyətini davam etdirir. ABŞ-ın 44-cü prezidenti, sülh sahəsində Nobel mükafatına layiq görülmüş Barak Obama 1983-cü ildə Kolumbiya Hüquq Məktəbini biririb. B. Obama bu mükafata layiq görülən üçüncü ABŞ prezidentidir. B.Obamanın prezidentlik səlahiyyətlərini bitirdikdən sonra universitetdə müəllimlik edəcəyi də məlumdur. Nobel sülh mükafatı 1906-cı ildə ABŞ dövlət başçılarından ilk dəfə olaraq Kolumbiya Hüquq Məktəbini bitirmiş 26-cı prezident Teodor Ruzveltə təqdim olunub. Prinston Universitetinin məzunu, 28-ci prezident Vudro Vilson bu mükafata layiq görülmüş ikinci ABŞ prezidentidir (1919). Ali məktəbin Nobel mükafatına layiq görülən məzunlarından kimya üzrə Martin Çalf (2008), Robert Qrabs (2005), fizika üzrə Con Mather (2006), iqtisadiyyat üzrə Ceyms Hekman (2000), Robert Mandell (1999), Edmund Felps (2006), fiziologiya və tibb üzrə Riçard Aksel, Linda Bak (2004), ədəbiyyat üzrə Orxan Pamukun (2006) adlarını çəkmək olar. Universitetin məzunları arasında 26 xarici ölkənin dövlət başçısı var. Qeyd edək ki, Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili Kolumbiya Hüquq Məktəbini, Estoniyanın sabiq prezidenti Tomas Hendrik İlves isə Kolumbiya Universitetinin psixologiya fakültəsini bitiriblər. ABŞ-ın keçmiş dövlət katibi Madlen Olbrayt da Kolumbiyanın məzunlarındandır. Əfqanıstanın sabiq baş naziri Əbdül Zahir bu təhsil ocağında magistr dərəcəsi alıb.

**Oruc MUSTAFAYEV,**
*“Azərbaycan müəllimi”*